# Kitab paylaşdıqca fayda verir...

## Beynəlxalq Kitab Bağışlama Günüdür

Kitablar bəzən hisslərimizi ifadə etmək üçün mühüm vasitə rolunu oynayır. Kitab oxumaq qətiyyət, səbr və öyrənmək istəyinin əlamətidir. Kitab oxumaq həm bir şəxs, həm də bir millət üçün nicat əlamətidir. Kitab insanlara danışmağı, yazmağı, həyatı, insanlığı öyrədir.

Kitab üçün buna bənzəyən çoxsaylı ifadələr işlədə bilərik. Çünki kitab həyatımızda xüsusi yeri olan və bizə nə isə izah etməyə həsr olunmuş bir nemətdir. Bəzi insanlar bundan sui-istifadə edirlər. Məsələn, bəzi hallarda hansısa dini və inancları ləkələmək üçün kitabdan istifadə olunur. Maraqlısı odur ki, həmin insanları da kitablar vasitəsilə doğru yola çəkmək mümkündür.




## Kitab ianələri...

Belə bir ifadə var ki, hər insan kitab yaza bilməz, amma hər kəs kitab oxuya bilər. Bu mənada kitablar hər kəsin düşüncəsinə, zövqünə xitab edir. Kitab elə bir məfhumdur ki, paylaşdıqca insanlara daha çox fayda verir. Buna görə də, kitab ianələri çox vacibdir. Çünki hər kəsin kitab almağa büdcəsi olmaya bilər. Ona görə də oxuduğunuz kitabları çox insan oxusun deyə paylaşın...

Yeri gəlmişkən, 14 fevral Beynəlxalq Kitab Bağışlama Günüdür. Bu gün hər kəs oxumaqdan zövq aldığı kitabları bağışlamaqla başqalarının faydalanmasına kömək edə bilər. Bəzi yeni və ya səliqəli istifadə olunmuş kitablar yerli kitabxanalara, yerli məktəbə, vətəndaş cəmiyyətlərinə və ya yerli quruma bağışlana bilər.

Bu gün həm də oxumaq sevgisini yaymaq üçün bir fürsətdir. Bütün dünyada kitabların bağışlanması savadlılığı dəstəkləyə və oxumağa təşviq edə bilər.

## Kitab oxumağın faydaları

Kitab oxumaq diqqəti və konsentrasiyanı yaxşılaşdırmağa kömək edir, təxəyyülü artırır, stresi azaldır, yaddaş gücünü yaxşılaşdırır. Kitab həm də oxumağa həvəsi olan insanlar üçün ən yaxşı hədiyyədir. Kitabların qiyməti də sərfəlidir və diqqətinizi problemlərdən yayındırır, bəzən sizi həyəcanlandırır, dünya haqqında öyrədir və geniş baxış bucağına sahib olmağa kömək edir.

Beynəlxalq Kitab Bağışlama Gününün mənşəyi haqqında dəqiq məlumat yoxdur. Ancaq ehtiyacı olan uşaqlar üçün kitab və ya pul bağışlamağın vacibliyinə görə bu günü qeyd etmək vacibdir. Bu günün yaradılmasında əsas məqsəd uşaqları kitab oxumaq vərdişinə yiyələndirməkdir. Bu mənada Kitab Bağışlama Günü bir çox uşaq üçün bu vərdişi əldə etmək şansı verə bilər. Beynəlxalq Kitab Bağışlama Gününün əhatə dairəsi genişlənməkdə davam edir. Artıq bu gün Avstraliya, Kanada, Cənubi Afrika və bir çox ölkələrdə qeyd olunur.




## Necə qeyd etmək lazımdır?

Ancaq çox təəssüf ki, bir çox ölkələrdə, hətta nə qədər təəccüblü olsa da, inkişaf etmiş ölkələrdə də kitab çatışmazlığı problem olaraq qalır. Məsələn, İngiltərədə uşaqların üçdə birində kitab yoxdur. ABŞ-da yoxsulluq içində yaşayan uşaqların üçdə ikisinin kitabı yoxdur. Bu mənada Beynəlxalq Kitab Bağışlama Günü uşaqların kitablara əlçatanlığını və həvəsini artırmaq məqsədi daşıyan könüllü təşəbbüsdür.

Bu baxımdan bütün dünyada insanlar öz icmalarında ehtiyacı olan uşaqlara kömək etməyin ən yaxşı yollarını nəzərdən keçirir - kitablarin bağışlanmasının vacibliyi haqqında maarifləndirmək üçün sosial şəbəkələrdə fotoşəkillər və fikirlər paylaşılır.

Qeyd edək ki, bayram əsasən İngiltərədə qeyd olunsa da, dünyanın hər yerindən kitabsevərlər hər il bu bayramlara qatılırlar və bir-birlərinə, qurumlara kitab bağışlayaraq bu günü xoş ovqatla keçirirlər.

***Yeganə BAYRAMOVA***